# Mənim Doğma Sumqayıtım



*Aydın Abbasov,
"Azərsu" Açıq Səhmdar cəmiyyətinin Departament Rəisi, II -ci dərəcəli "Əmək" ordenli "Tərəqqi" medallı*

**Mavi Xəzərin sahilində respublikamızın ikinci sənaye şəhəri kimi tanınan Sumqayıt ötən 70 il ərzində özünəməxsus tərəqqi və yüksəliş yolu keçmişdir.**

Sumqayıta şəhər adı veriləndə onun əhalisi cəmi 17 min nəfər olmuşdur. Həmin insanların məskunlaşdığı bu yerlər üzüm bağlarından, narın qum təpələrindən, göz işlədikcə uzanan boz çöllərdən ibarət olub. Onun təməl daşlarını qoyan inşaatçılar taxtadan tikilmiş yöndəmsiz baraklarda yaşayıblar. Bu insanlar bütün çətinliklərə dözərək susuz çöllərə öz alın tərləri ilə can vermiş, buranı nəhəng sənaye mərkəzinə, əzəmətli yaşayış massivinə, yaşıllıqlar diyarına, xiyaban və parklar şəhərinə çevirmişlər. Bu bir danılmaz həqiqətdir ki, şəhərin salınmasında müxtəlif yerlərdən gəlmiş gənclərin rolu böyükdür və hazırda şəhər əhalisinin əksəriyyətini yenə də gənclər təşkil edir. Məhz buna görə Sumqayıta gənclər şəhəri deyirlər. Öz potensialına görə respublikamızın ikinci sənaye şəhəri olan Sumqayıtın ölkə iqtisadiyyatında nəzərə çarpacaq xüsusi çəkisi vardır.

### *70 yaşlı Sumqayıt*

şəhərinin dinamik inkişaf və tərəqqi dövrü kimi xarakterizə olunan 34 illik tarixi xalqımızın müdrik oğlu, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Sumqayıt şəhərinə və sumqayıtlılara diqqət və qayğısını əsirgəməyən dünya şöhrətli siyasətçi bu müddətdə 16 dəfə gənclik şəhərində olmuşdur ki, bu səfərlərin də hə biri şəhərin tarixi salnaməsinin ən parlaq səhifələrini təşkil edir.

Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər təyin ediləndə Sumqayıtda əsasən inşaat sahələri var idi. Bir il sonra məhz Heydər Əliyevin təşəbbüsü ilə yüngül sənaye müəssisələri Üst Trikotaj və Xovlu İplik fabrikləri tikildi. Eyni zamanda sənayenin digər sahələri də istismara verildi.

Heydər Əliyevin diqqət və qayğısı sayəsində şəhər əhalisinin rifahı durmadan yüksəlirdi. Adamlar yaradıcı əməkləri ilə şöhrət qazanır, ucalırdılar. Sumqayıt keçmiş Sovetlər İttifaqında dostluq, qardaşlıq, metallurqlar, kimyaçılar, energetiklər, inşaatçılar, ziyalılar, əmək qəhrəmanları şəhəri kimi şöhrət qazanmışdır.

### *Heydər Əliyev və Sumqayıt*

Bu sözlər çox rəmzi məna daşıyır. Çünki Sumqayıtın əldə etdiyi hər bir uğurda onun rolu, zəhməti var. Rəhbərliyi dövründə vaxt tapıb 16 dəfə Sumqayıta gəlməsi Ulu Öndərin şəhərimizə və onun sakinlərinə olan məhəbbətin əyani ifadəsidir.

İllər bir-birini əvəz etdikcə səhiyyə, mədəni-maarif ocaqları, dəmir yolu və avtomobil vağzalları, telefon stansiyaları sumqayıtlıların ixtiyarına verilmişdir. Sumqayıt Xəzər boyu irəlilədikcə elm müəssisələrin, sosial obyektlərin, çoxmərtəbəli yaşayış evlərinin sayı da gündən günə artmışdır.

Bu sətirlərin müəllifi də Sumqayıtın inkişafında az zəhmət çəkməmişdir. Daha doğrusu, o Sumqayıtı, Sumqayıt isə onu ucaltmışdır. Mən Sumqayıtda zavod direktorundan tutmuş müxtəlif rəhbər vəzifələrdə işləmişəm. Sumqayıtı və Sumqayıtlıları çox gözəl tanıyıram. Sumqayıt mühəndislər şəhəridir desəm yanılmaram.

Sumqayıt mənim ailəmin və övladlarımın tale şəhəridir. Ən azı ona görə ki, keçdiyim həyat yolunun yarıdan çoxu Sumqayıtla bağlıdır. Sumqayıtı sevərək bu şəhərə gəlmişəm. Gəlmişəm təkcə ona görə yox ki, şəhər məni yaşatsın. Gəlmişəm ki, mən də Sumqayıtın qurub yaradanların, inkişaf etdirənlərin sırasında olum.

Sumqayıt isə onu sevənlərə, onun tərəqqisində az da olsa xidməti olanlara borclu qalmır, qoynundakı hər bir sumqayıtlının töhfəsinə görə dəyərincə qiymətləndirməyi bacarır. Sumqayıta taleyimin şəhəri deyirəm. Ona görə ki, bütün uğurlarım bu şəhərlə bağlıdır.

onların yerləşdirilməsi üçün lazımi tədbirlər görülüb. Yataqxanalar, mehmanxanalar, istirahət evləri, keçmiş pioner düşərgələri, eyni zamanda 86 inzibati bina, tikintisi hələ başa çatmamış onlarla yaşayış binaları məcburi köçkünlərin müvəqqəti sığınacaq yeridir. Artıq neçə illərdir ki, birgə yaşayırıq, dərd-sərimizi birgə bölürük.

Ulu öndərimiz Heydər Əliyev tərəfindən Sumqayıta göstərilən qayğı bu gün onun davamçısı, hörmətli Prezidentimiz İlham Əliyev cənabları tərəfindən davam etdirilir. İlham Əliyev cənablarının şəhərimizə hər gəlişi toy bayrama çevrilir və hər gəlişi zamanı şəhərdə bir neçə obyektin açılışı olur. Hörmətli Prezidentimiz İlham Əliyev Sumqayıtın 70 illik yubileyini təntənəli şəkildə keçirmək üçün sərən-



Sumqayıt mənim üçün ailə qurduğum, övladlarımın təvəllüd tapdığı ən doğma yerimdir. Ona Ana Vətənin adi bir guşəsi kimi deyil, övladlarımın anası, beşiyi, bağçası məktəbi, gələcəyi, kimi bağlıyam. Özünə güvənənlərin və özünü sübut etmişlərin şəhəri kimi Sumqayıt yarandığı gündən özünü Milli iftixar və qürur yerimiz olan Bakı ilə müqayisə edir. Paytaxtla yarışır, ona oxşamaq istəyir, ondan geri qalmamağa çalışır. Hər gün minlərlə sumqayıtlı Bakıya oxumağa, işləməyə gedir. İstər-istəməz özü ilə "evə paytaxt zövqü", paytaxt hazırlığı gətirir.

Ona görə sumqayıtlıların ümumi səviyyəsi, işgüzarlığı həmişə yüksək olub. Artıq 20-30 ildir ki, Bakıda yaşayıb Sumqayıtda işləmək və əksinə Sumqayıtda yaşayıb Bakıda işləmək adi haldır.

### *XVII-XVIII əsrlərdə*

Avropadan Amerikaya səfər edib orada məskunlaşan, özünə gün-güzəran, cah-calal quran qabiliyyətli insanlar kimi, Sumqayıta axışıb gələn insanlar da burada hər şeyə özləri nail olmuş, hər şeyi "sıfırdan" başlamışlar.

Ona görə Sumqayıt "özünü sübut etmiş" iradəli, inadkar, dözümlü və döyüşkən insanların şəhəri kimi yaranmışdır. Vətəni, el-obanı qədir-qiymətə, şan-şöhrətə mindirən onun sakinləridir. Sumqayıtlıların da ən fitri xüsusiyyətləri onların özlərini "sübut etmək" bacarıqlarıdır. Sumqayıtlılar dəyişən şəraitə daha tez uyğunlaşmaq deyil, şəraiti özlərinə uyğunlaşdırmaq keyfiyyətinə malikdirlər. Ona görə də onlar kənd adamı kimi cod, bəzən kobud və ipə-sapa yatmazdılar.

Lakin aza qane olmaq və həyatsevərlik sumqayıtlıların səciyyəvi cəhətidir.

Sumqayıt həm də qaçqın və məcburi köçkünlərin ən çox məskunlaşdığı yerdir. Hələ 1988-ci ildə şovinist erməni siyasəti nəticəsində Ermənistandan zorla çıxarılan azərbaycanlıların 22 min nəfəri Sumqayıta gəlmişdir. Sonralar məlum Qarabağ hadisələri ilə bağlı işğal olunmuş bölgələrdən 65 min nəfər məcburi köçkün də Sumqayıta pənah gətirib. Çətin olsa da

cam imzalamışdır. "Xaruqələr yaradır el Sumqayıtda" ifadəsi bu gün özünü tam təsdiq edir. Sumqayıtda tikilən çoxmərtəbəli binalar, yeni istifadə verilən sənaye obyektləri, parklar, xiyabanlar, fəvvarələr göz oxşayır. "Heydər parkı" camaatın ən sevimli istirahət yerinə çevrilib. Nizaminin, Nəsiminin heykəlləri şəhərə xüsusi yaraşıq verir. Yeni açılan zavodlar, idman kompleksləri gənclərin işlə təmin olunmasına, idmanla məşğul olmalarına şərait yaradır. Sumqayıt idmançılarının səsi-sorağı dünyanın hər yerindən gəlir.

Bu da inkar edilməz faktdır ki, Zakir Fərəcov Sumqayıt şəhəri İcra Hakimiyyətinin başçısı təyin olunandan sonra Sumqayıt öz simasını tamamilə dəyişib. Bunu görməyən göz kordu. Hörmətli Prezidentimiz İlham Əliyev Sumqayıt bulvarını möcüzə adlandırıb. Bu möcüzəni az bir vaxtda Zakir Fərəcov və Sumqayıtlılar yaradıb. İndi Bakıdan gəlib Sumqayıtın bulvarında istirahət edənlər çoxdur.

### *Mən Sumqayıtın parlaq gələcəyinə inanıram*

İnanıram ki, Sumqayıt Azərbaycanın ən inkişaf etmiş, gözəl guşələrindən biri olacaq, şəhərimizin adı dünyanın müxtəlif bölgələrində həmişə iftixarla çəkiləcək. Biz də həmişə olduğu kimi sumqayıtlı olduğumuzla fəxr edəcəyik. Biz böyük bir yolun astanasındayıq. Bu yol dirçəliş, inkişaf, tərəqqi yoludur. Sumqayıtlılar öz doğma şəhərlərinin 70 illik yubileyini böyük əhval-ruhiyyə ilə qarşılayırlar. Çox sevinirəm ki, 70 illik yubileyini bu yaxınlarda qeyd edəcəyimiz mənim tale şəhərim olan Sumqayıtın tərəqqisində və inkişafında az da olsa mənim də əməyim var.

Sumqayıta 70-ci illərdə gəlmişəm. Gəlişim elə o gəliş olub başqa ölkələrdə yaşamağa işləməyə imkanım olub. Ancaq nə gizlədim Sumqayıtdan ayrıla bilməmişəm və ayrıla bilmərəm də.

**Bura çoxlarının tale şəhəri olduğu kimi mənim də tale şəhərimdir. Ürəkdən deyirəm 70 illik yubileyin mübarək. Mənim doğma Sumqayıtım .**

Ədalət 2019.- 24 oktyabr.- S.4.